# Xidmətin səviyyəsi yüksəlir



**Azərbaycanda turizmin inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1970-1980-cı illərdə o, Azərbaycanda turizmin inkişafına, turizm və ekskursiyaların coğrafiyasının genişlənməsinə xüsusi qayğı və diqqət göstərmişdir.**

Əlli-altmışıncı illərdə respublikamızda turizmin inkişafı üçün bütün amillərin yetərincə olmasına baxmayaraq Azərbaycan SSRİ məkanında bu cəhətdən ən zəif inkişaf etmiş respublikalardan sayılırdı. O dövrlərdə mətbuat və televiziyada Azərbaycan haqqında danışarkən yalnız neft sənayesindən, neftçilərin fədakar əməyindən bəhs edilirdi. Azərbaycan və onun paytaxtı Bakının neft qoxulu, cansıxıcı, maraqsız bir məkan olduğu rəyi formalaşmışdı. Deməkolar ki, Azərbaycanın turizm bölgələri haqqında heç bir məlumat yox idi.

SSRİ-nin müxtəlif regionlarından olan insanlar turist gəzintiləri və istirahət üçün Qara dəniz sahillərinə, Gürcüstan və Şimali Qafqaz kurortlarına daha çox önəm verirdilər.

1969-cu ilə qədər Azərbaycanın turizmlə bağlı vəziyyətinin ürəkaçan olmadığını aşağıdakılar da sübut edir. Belə ki, o zaman Respublika Həmkarlar İttifaqı Turizm İdarəsinin nəzdində cəmi 3 turist bazası var idi:

- 1957-ci ildə Mingəçevirdə təşkil olunmuş turist bazası;
- 1963-cü ildə Nabran zonasında yaradılmış və çadır şəhərciyindən ibarət olan "Xəzər" turist bazası;
- 1966-cı ildə Hacıkənddə yaradılmış turist bazaları.

1969-cu ildən başlayaraq respublikamızın inkişafına təkan verən bir çox qərarların qəbulunun əsas təşəbbüskarı həmin il Azərbaycan KP MK-nin birinci katibi seçilmiş Heydər Əliyev olmuşdur.

Bu qərarlarda respublikada turizm və ekskursiya işinin inkişafı, kütləvi turizmin təşkili, turist-ekskursiya təşkilatlarının işinin yaxşılaşdırılması və şəbəkəsinin genişləndirilməsi, turist-ekskursiya işinin mühüm xidmət sahəsinə çevrilməsi yönümündə tədbirlər görülməsi haqqında əlaqədar nazirliklərə, komitə və təşkilatlara göstərişlər verildi.

Həmin qərardan sonra Azərbaycanın bir sıra regionları kimi, Nabranda da 400 yerlik turist bazası fəaliyyətə başladı.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Bakı şəhərində, eləcə də respublikamızın turizm bölgəsi sayılan digər regionlarında geniş quruculuq və abadlıq işləri aparıldı.

1980, 1983 və 1984-cü illərdə turizmin inkişafına aid bir sıra qərarlar qəbul edildi. Hətta 1985-2000-ci illər üzrə turizmin inkişaf planı qəbul olundu. Mütəxəssislərin fikrincə, ötən əsrin 80-ci illərində Azərbaycan turizmi özünün ən yüksək inkişaf səviyyəsinə çatmışdı. Təəssüf ki, sonradan bütün işlər yarımçıq qaldı.

Belə ki, sonrakı illərdə Azərbaycanda turizmin inkişafına və nəzərdə tutulan layihələrin həyata keçirilməsinə manеələr yarandı.

Əgər o dövrdə layihələr həyata keçsəydi, Azərbaycan inkişaf etmiş turizm diyarına çevrilə bilərdi.

SSRİ-nin dağılması, Dağlıq Qarabağ hadisələri, hakimiyyətdə olan hərc-mərclik Azərbaycanın sosial-iqtisadi həyatının bütün sahələri kimi turizmə də böyük ziyan vurdu.

Müharibə vəziyyəti respublikamıza turist səfərlərinin qarşısını aldı. Turizm müəssisələrinin bir qismi ləğv edildi, bir hissəsi isə fəaliyyətini tamamilə dayandırdı. Turist bazalarına və sanatoriya-kurort müəssisələrinə müvəqqəti olaraq qaçqın və məcburi köçkün soydaşlarımız yerləşdirildi.

Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi ilə bütün sahələrdə olduğu kimi turizm sektoru da yüksəlişə başladı.

Xüsusi narahatlıq duyulan bölgələrdə - Qusar, Quba, Xaçmaz, Zaqatala, Qax və Şəkidə, eləcə də Masallı-Lənkəran zonalarında ulu öndər Heydər Əliyevin müdrik siyasəti sayəsində sabitlik bərpa olundu, qonşu dövlətlərlə sərhədlərimiz möhkəmləndirildi.

Həmin ərəfədə ulu öndər Heydər Əliyevin xarici və yerli iş adamlarının Azərbaycanda hotelçilik və Turizm biznesinə sərmayə qoyulmasına çağırışı tezliklə öz bəhrəsini verdi.

Turizmin inkişaf tendensiyası ölkənin ali qanunvericilik aktlarında da öz əksini tapdı. 1999-cu ildə Milli Məclisdə "Turizm haqqında"qanun qəbul edildi. Həmin ilin 27 iyulunda isə Heydər Əliyev bu qanunun tətbiq edilməsi haqqında fərman imzaladı. Qanun Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi. 2001-ci ildən Azərbaycan Ümumdünya Turizm Təşkilatının (ÜTT) üzvü oldu.

2002-ci il 27 avqust tarixli Prezident sərəncamı ilə "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq olundu. 2001-ci ildə "Welcome to Azerbaijan" adlı xüsusi disk və "Turizm by Azerbaijan" adlı veb səhifəsi hazırlandı.

Hazırda Azərbaycanda regionları əhatə edən və yerli qonaqları qəbul edən 149 mehmanxana rəsmi qeydiyyatdadır. Beynəlxalq təşkilatların fikrincə, respublikamızda turizmin inkişafı üçün gözəl imkanlar var.

Son 10 ildə ölkəmizin iqtisadi, siyasi, sosial, mədəni və turizm sahələrində əldə etdiyi nailiyyətlər ulu öndər Heydər Əliyevin və onun layiqli davamçısı olan Prezident İlham Əliyevin böyük zəhməti hesabına qazanılmışdır.

2003-cü ildə "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında", 2004-cü ildə "Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" haqqında Prezident fərmanları ölkə iqtisadiyyatının, o cümlədən turizm sektorunun inkişafı yolunda mühüm addımlar oldu.

Bu gün Azərbaycanda turizm yüksələn xətt üzrə inkişaf etməkdədir. "2009-2018-ci illərdə Azərbaycan Respublikasında kurortların inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi ilə ölkəmizdə yaxın gələcəkdə turizm-kurort sahələrinin planlı surətdə inkişaf etdirilməsinə və səmərəli istifadəsinə zəmin yaradacaq.

Azərbaycan Respublikasında turizm tədricən iqtisadi siyasətin ən qabaqcıl istiqamətlərindən birinə çevrilir. Ayrı-ayrı bölgələrə səfərimiz zamanı ölkəmizin turizmi beynəlxalq səviyyəyə qaldırmaq üçün nə qədər böyük potensiala malik olduğunu bir daha yəqin etdik.

Bu sahədəki, uğurlar bizi Azərbaycanda turizm bölgələrinin inkişafı ilə bağlı silsilə məqalələr yazmağa ruhlandırır. Söhbətimizə Xaçmazdan başlamağı məqsədəuyğun bilirik.

2006-cı ildə yaradılmış Xaçmaz Turizm İnformasiya Mərkəzi qısa zaman kəsiyində müxtəlif layihələr həyata keçirmişdir. Bu Mərkəz Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin

regionlarda açılan və fəaliyyət göstərən ilk müəssisəsi olub. Nazirin 15 dekabr 2006-cı il tarixli əmrinə əsasən Mərkəzin əsasnaməsi təsdiq edilib. Bu əsasnaməyə görə, Xaçmaz Turizm İnformasiya Mərkəzi regionda turizmin inkişafı sahəsində tədbirlər həyata keçirməli və turistləri lazımi məlumatlarla təmin etməlidirlər.

Mərkəz rəsmi fəaliyyətə 2007-ci ilin yanvarından başlamışdır. Həmin vaxtdan Mərkəzin direktoru Vasif Əhmədovdur. O öz işgüzarlığı və çalışqanlığı ilə seçilir, işinə məsuliyyətlə yanaşır.

Söhbət əsnasında Vasif müəllim dedi ki, Mərkəz regionda turizmlə bağlı hər hansı problemin həlli və yaxud Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin bölgədə həyata keçirməli olduğu turizm layihələrinin gerçəkləşməsi ilə məşğuldur. Mərkəzin kollektivi turizm sahəsində bir sıra tədbirlər həyata keçirməyə müvəffəq olub. Bu illər ərzində müxtəlif turizm sərgilərinə qoşulub, regionun potensialını nümayiş etdirib.

2008-ci ildə Xaçmaz Turizm İnformasiya Mərkəzinin fəaliyyətini uğurlu saymaq olar. Mərkəzin işçiləri mütəmadi olaraq Mədəniyyət və Turizm Nazirliyinin təşkil etdiyi treninqlərdə təkmilləşmə kursları keçirlər.

Mərkəzdə görülən işlərin istiqamətləri çoxşaxəlidir. Belə ki, burada tez-tez sənət adamları ilə görüşlər təşkil edilir, onların nümunəvi əl işləri toplanaraq paytaxtdakı əl işləri dükanlarında satışa çıxarılır.

Hələ sovet dövründən məşhur olan Nabran istirahət mərkəzi öz təbiəti, meşə zolağı, dəniz sahili, istirahət düşərgələri ilə hər zaman göz oxşayıb.

Turizm mövsümündə mərkəz işini əsasən rayona gələn turistlərin vaxtlarının səmərəli keçməsini təmin etməyə yönəltmişdir.

Xaçmaz zonasında istirahət edən turistlər üçün mədəniyyət evinin musiqi ansamblı və aktyorları ilə müxtəlif əyləncəli proqramlarla çıxışlar təşkil edilir. Ərazidəki tarixi abidələrə, müqəddəs ocaqlara, habelə etnik azlıqlar olan kəndlərə daim turist gəzintiləri təşkil edilib.

Mərkəzin 2008-ci il uğurları sırasına "Ukrayna-2008" Beynəlxalq Turizm sərgisində iştirakı da daxildir. Vasif Əhmədov deyir: "Biz bu ideyanı irəli sürdük və o, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri cənab Ə.Qarayev tərəfindən müsbət qarşılandı. Beləliklə, kollektivimiz sərgiyə vəsiqə qazandı."

Ukraynadakı sərgiyə Xaçmaz rayonu ərazisində yerləşən ən yaxşı istirahət mərkəzlərinin nümayəndələri də getmişdi. 7 nəfərlik heyət üç gün ərzində sərgidə Azərbaycanı təmsil etdi. Eyni zamanda, Xaçmazdan gedən istirahət mərkəzlərinin fərdi şəkildə də sərgiləri nümayiş olundu. Bu sərgi Mərkəzə böyük uğurlar gətirdi. Belə ki, sərgidə 15 ölkənin nümayəndəsi iştirak edirdi. Bir sıra ölkələrin istirahət mərkəzləri Xaçmaz Turizm İnformasiya Mərkəzi ilə iş birliyinə dair müqavilələr bağladılar.

Ukraynanın Azərbaycandakı səfirliyinin iqtisadi məsələlər üzrə nümayəndəsi Blasuk Miroslaviçin dəstəyi ilə nümayəndə heyəti orada bir sıra görüşlər keçirdi.

Mərkəz 2009-cu ilin tədbirlər planını da yerinə yetirməkdə davam edir. Aprelin 21-də "Yay turizm mövsümünün hazırlıq işləri"nə həsr olunmuş konfrans keçirildi. Konfransa Xaçmaz Rayon İcra Hakimiyyəti, Xaçmaz Rayon Mədəniyyət və Turizm Şöbəsi, Mərkəzi xəstəxana, Mərkəzi Kitabxana, Sanitar Epidemologiya Mərkəzi, Fövqəladə Hallar İdarəsi, Statistika İdarəsi, istirahət mərkəzləri və digər müəssisə və təşkilatlar da dəvət olunmuşdu. Tədbirdə turizm işinin yaxşılaşdırılması ilə bağlı bir sıra məsələlər müzakirə edildi.

Vasif Əhmədov deyir:

- Regionda turizm potensialının artırılması işi Mərkəzin üzərinə düşür və problemlərin mövcudluğu artıma sözsüz ki, maneə olur. Problemlərə, əsasən istirahət mərkəzlərində rast gəlinir.Həmin istirahət mərkəzlərinə isə fiziki şəxslər rəhbərlik edir. Əvvəllər hər hansı bir dövlət qurumu onların işinə müdaxilə etmirdi. İndi isə turizm mərkəzi vaxtaşırı görüşlər, müzakirələr keçirir və onlara müxtəlif informasiyalar çatdırır.

**Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi bu istiqamətdə rəngarəng layihələr həyata keçirir. Belə ki, gələcəkdə turist xidməti obyektlərində fəaliyyət göstərən personalın turizm servisi kursu keçməsi tələbi qoyulacaq. Bu da işçilərin turistlərə xidmət səviyyəsini yüksəldəcək və mövcud problemlərin aradan qaldırılmasına gətirib çıxaracaqdır...**

**• Elmira HƏSƏNQIZI**